BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2013*

# TARİX

**UOT 94/99**

## SSRİ RƏHBƏRLİYİNİN AZƏRBAYCAN SSR-in DAĞLIQ QARABAĞ BÖLGƏSİNDƏ MƏQSƏDLİ SƏNAYELƏŞDİRMƏ SİYASƏTİ TARİXİ MƏNBƏLƏRDƏ

**N.R.MƏMMƏDOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***Memmedov-n.@yahoo.com.***

*Məqalədə, mənbələrə əsaslanaraq 1926-1940-cı illər ərzində Azərbaycan SSR-in DQMV-də birtərəfli sənayeləşdirmə siyasətinin formalaşdırılması xüsusiyyətləri və onun doğurduğu nəticələr təhlil edilmiş, vilayətin aqrar regiondan aqrar-sənaye regionuna çevrilməsi, yeni iş yerlərinin açılması hesabına işsizliyə son qoyulması, bölgədə yeni sənaye sahələrinin isə salınmasının Azərbaycan xalqının yox, Moskvanın və Ermənistanın mənafeyinə uyğun bir siyasət olduğu, sərvətlərimizin talan edilməsi, sənayedə işləyən azərbaycanlılara ögey münasibət və ağır nəticələri tədqiq olunmuşdur.*

**Açar sözlər**: mənbəşünasliq, tarix, bölgə, Qarabağ, DQMV, ədəbiyyat, obyektiv, tarixşünaslıq, sənaye

Sənayeləşdirməni əməli olaraq həyata keçirmək 1925-ci ilin dekabrında irəli sürülmüşdür. 1926-cı ilin əvvəllərində Dağlıq Qarabağda sənayenin inkişafı üçün həyata keçirilən ilkin tədbirlər «Sovet Qarabağı» (rus dilində) qəzetində 11 iyun 1926-cı il sayında geniş şərh edilmişdir. Materialda göstərilir ki, Azərbaycanda sənayeləşdirmənin həyata keçirilməsi üçün 1926-cı ilin fevralında sənayeləşdirmə üzrə xüsusi komissiya yaradıldı, 1926-1930-cu illər üçün inkişaf planı hazırlandı [19].

«Kommunist» qəzeti 24 dekabr 1933-cü il (674-cü) nömrəsində, «Azərbaycan SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası)», 1931, №2, səh. 40-da, ARDTA, fond 379, s.3, i.595, v.3-4, 14-də saxlanılan sənədlərdə Azərbaycan hökumətinin 1926-cı ildə Dağlıq Qarabağ sənayesini inkişaf etdirmək üçün həyata keçirilən tədbirləri öz əksini tapmışdır: Yuxarıda adıgedən mənbədə göstərilir ki, Azərbaycan hökuməti 1926-cı ildə DQMV-də sənayenin inkişafı üçün 457000 manat, elektrikləşmə üçün 23630 manat, rabitə və telefonlaş-

maya 32335 manat büdcədən pul ayırdı. Müəssisələrə xammal, avadanlıqlar və ixtisaslı kadrlar göndərildi. Vərənddə yeni spirt zavodunun tikintisi üçün 4000 manat pul ayrılmış, Taqverd spirt zavodu 2-ci spirt zavodunun inşasına başlanmışdır [1].

"Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası)" 1931-ci il 2-ci sayında Dağlıq Qarabağ sənayesinin 1926-cı il vəziyyəti qısa şərh edilmişdir. Həmin mənbəyə əsaslanaraq göstərilir ki, 1926-cı ildə DQMV-də 14 kooperativ, 65 satış nöqtəsi var idi ki, onların xüsusi kapitalı 194971 manata çatırdı. DQMV-də 1926-cı ildə 23630 manat dəyərində elektrik xətti çəkilmiş, 50 yaşayış evi istifadəyə verilmiş, Xankəndi-Talış-Ağdərə yolu bərpa edilmiş, telefon, teleqraf çəkilişində xeyli işlər görülmüşdür [15].

ARPİİSSA, fond 89-da 1927-ci ildə Dağlıq Qarabağ sənayesinə ayrılan vəsait öz əksini tapmışdır. Mənbədən oxuyuruq: 1927-ci ildə DQMV-nin sənayesinə kapital qoyuluşu 1926-cı ildəkindən 75 faiz artıq olmuşdur. Ümumi məhsuldarlıqda isə 23 faiz artım müşahidə edilmişdir. 1927-ci ildə Xankəndi ipək fabrikinin tikintisinə başlanmış və 1929-cu ildə istifadəyə verilmişdir [13].

ARDTA, fond 2511-də saxlanılan mənbələrdən məlum olur ki, sənayeləşdirmənin ilk illərində DQMV-i sənayesində bir sıra məhdud cəhətlər ortaya çıxmışdır. Belə ki, kadr azlığı, planlaşdırmadakı səhvlər, xammal çatışmazlığı, sənaye obyektlərinə rəhbərlik edən ermənilərin azərbaycanlılara qarşı ögey münasibəti, azərbaycanlılar yaşayan kəndlərdə heç bir sənaye obyekti və onun filialının yaradılmaması, sənaye müəssisələrində işləyən az-çox azərbaycanlı fəhlələrə qərəzli münasibət və sair hallar sənayeləşdirmənin tempinə və əhalinin həyat səviyyəsinə ağır zərbə vururdu. Lakin 1926-1928-ci illərdə DQMV-də sənayeləşdirmənin həyata keçirilməsinin əhəmiyyətli cəhətləri də olmuşdur. Belə ki, DQMV-də köhnə müəssisələr bərpa edilərək yeniləri işə düşmüş və işsizliyə son qoyulmuşdur. Dağlıq Qarabağ geridə qalmış aqrar bölgədən, aqrar-sənaye vilayətinə çevrilmişdir. Fəhlələrin sayı isə 5 dəfə artmışdır [3].

«Azərbaycan KP qurultayları, konfransları və MK plenumları qətnamə və qərarları. I cild (1920-1937)», (Bakı, 1987) adlı mənbədə göstərilir ki, sənayeləşdirmənin ilk illərində əldə edilmiş nailiyyətlər imkan yaratdı ki, Mərkəz uzunmüddətli inkişaf planı hazırlasın. SSRİ hökuməti, Azərbaycanın iqtisadi inkişafını tənzimləmək, onu nəzarətdə saxlamaq üçün birinci beşillik plan (1928/29-1932/33) qəbul etdi [81, 82].

Birinci beşillikdə Dağlıq Qarabağ sənayesinə Azərbaycan hökuməti tərəfindən vəsait qoyuluşu, nəzərdə tutulan digər vəzifələr ARDTA, fond 28-də öz əksini tapmışdır. Mənbədə göstərilir ki, Azərbaycan hökuməti birinci beşillik dövründə DQMV-də sənayeyə kapital qoyuluşunu 2 dəfə artırdı [4].

«Yeni yol» qəzeti 20 dekabr 1933-cü il sayında və «Yeni kənd» jurnalı 1930-cu il №4-də (səh. 29-da) Birinci beşillikdə Dağlıq Qarabağda əldə edilən nailiyyətlər işıqlandırılmışdır. Həmin mənbələrdə göstərilmişdir ki, birinci beşillik dövründə DQMV-də yeni sənaye sahələri yaradıldı. 1930-1931-ci

illərdə Vilayətdə ipəkçilik kombinatı, əyirici fabriki, barama qəbulu məntəqəsi, gön-dəri sexləri istifadəyə verildi [20, 21].

ARPİİSSA, fond 89-da Dağlıq Qarabağda şərab-spirt istehsalından bəhs olunub. Yuxarıda adıgedən mənbədən oxuyuruq: DQMV-də ümumi sənaye məhsulları içərisində istehsal həcmi 21,8 təşkil edən əsas sənaye sahələrindən biri də, şərab-konyak istehsal edən sənayedir…. 1930-cu DQMV spirt-şərab zavodlarında 10 növ spirtli içki, 4 növ konyak, 9 növ quru şərab, 3 növ yeməkxana şərabı istehsal olunurdu [13].

Erməni millətçilərinin DQMV-də yaşayan ermənilərin sosial-iqtisadi geriliyi konsepsiyasının tamamilə ağ yalan olduğu ARDTA, fond 379-da saxlanılan mənbələrdən də görmək olar. Həmin mənbəyə əsaslanaraq deyə bilərik ki, tikintisinə beşilliyin əvvəllərində başlanan Araçazor Dəyirman Daşı Kombinatı 1930-cu ildə istifadəyə verildi. Kombinat çirkli suların duruldulmasında istifadə olunan daş da istehsal edirdi. Kombinatın buraxdığı məhsullar İran və Türkiyə bazarlarında çox böyük həvəslə alınırdı. Kombinatın məhsulları hesabına 1928-1932-ci illərdə Vilayətdə 40 dəyirman tikilib istifadəyə verilmişdi. Artıq 1933-cü ildə DQMV-də 259 dəyirman işləyirdi Dəyirmanlarda 280 fəhlə çalışırdı. Dəyirmanların illik gəliri 508 min manat idi. Bəhs etdiyimiz dövrdə Yevlaxda 1 dəyirman, Tərtərdə 12, Ağcabədidə 10 dəyirman olduğu halda, Ağdərədə 72, Hadrudda 60, Xocavənddə 55, Xankəndində 57, Şuşada isə cəmi 15 dəyirman fəaliyyət göstərirdi [5].

Birinci beşillik dövründə DQMV-də energetika sənayesi də inkişaf etdi. 1930-cu ildə 350 at gücündə olan Xankəndi SES tikilib istifadəyə verildi. 1933-cü ildə DQMV-də gücü 408 kilovata çatan 4 elektrik stansiyası fəaliyyət göstərirdi. Bu vaxt Naxçıvan Muxtar Respublikasında gücü 181 kilovata çatan 1 stansiya, Yevlaxda 50 kilovatlıq 1 stansiya işləyirdi. Birinci beşillik ərzində DQMV-də elektrik enerjisi istehsalı 75 faiz artdı. Bu ümumi respublika göstəricilərindən 11 faiz çox idi [13].

Birinci beşillik dövründə Dağlıq Qarabağ sənayesində əldə edilmiş nailiyyətlər ARDTA, fond 89-da tam işıqlandırılıb. Həmin mənbədə göstərilir ki, beşillik dövründə DQMV-nin ermənilərin məskunlaşdığı 21 kəndində dəmirçi emalatxanaları, dərzi, corab, sabunbişirmə, yəhər, nalbənd, mebel, ayaqqabı, duluz hazırlayan və başqa artellər, kərpic, əhəng, yağ-pendir, çörəkbişirmə, limonad və digər zavodlar tikilib istifadəyə verildi… Magistral yol nəqliyyatı da bu dövrdə əhəmiyyətli dərəcədə inkişaf etdi. Yük dövriyyəsinin həcmi 1928-ci illə müqayisədə 1933-cü ildə 2 dəfə artdı… 1928-1932-ci illərdə DQMV-də ticarət mal dövriyyəsi 5 dəfə artaraq 346 min manatdan 1 milyon 732 min manata çatdı. Adambaşına istehlak 70 faiz çoxaldı. 1933-cü ildə DQMV-də 250 nəfərin işlədiyi 29 ticarət mərkəzi fəaliyyət göstərirdi [7]. Mənbənin digər vərəqindən oxuyuruq: Birinci beşillik dövründə sənayenin inkişafı fəhlə sinfinin tərkibinin kəmiyyət və keyfiyyət dəyişikliyinə şərait yaratdı. DQMV-də fəhlələrin sayı 1928-ci illə müqayisədə 2 dəfə artaraq 2270 nəfərə çatdı. Aparılan araşdırmalardan məlum olar ki, fəhlə və qulluqçuların

milli tərkibində qeyri-azərbaycanlılar üstün olmuşdur. Dağlıq Qarabağda inzibati amirlik metodunu tətbiq etməklə, xalqımızın gərgin əməyinin istismarı hesabına birinci beşillik plan yerinə yetirildi. 1931-ci ildə DQMV-də büdcənin gəliri 2795 min manat, məxaric 3837 min manat ikən, 1933-cü ildə gəlir 4629 min manat məxaric 8495 min manata çatdı. Vəsait qoyuluşunun həcmində də artım müşahidə edilmişdir. Belə ki, 1926-cı illə müqayisədə 1933-cü ildə qoyulan vəsaitin həcmi 8 dəfə artmışdı [7].

Beləliklə, yuxarıdakı mənbələrə əsasən deyə bilərik ki, birinci beşillikdə DQMV-də sənaye potensialı güclənmiş, fəhlə sinfi və qulluqçuların sayı artmış, yeni sənaye müəssisələri meydana gəlmiş və işsizlik aradan qaldırılmışdır. Bundan əlavə Azərbaycanın Dağlıq Qarabağdakı sərvətlərinin mərkəz tərəfindən mənimsənilməsi üçün əlverişli zəmin yaranmışdı.

«Bakinski raboçi» qəzeti 21 yanvar 1933-cü il (№1612) sayında ikinci beşillikdə DQMV-nin sənayesinin çətinlikləri haqda məlumat verilmişdir. Mənbədə göstərilir ki, beşilliyin ilk illərində DQMV-nin sənayesində bəzi çətinliklər üzə çıxdı. Belə ki, müəssisələrdə yüksəkixtisaslı kadrlar çatışmırdı. Sənaye müəssisələrinin texniki təchizatı lazımı səviyyədə deyildi. Əmək intizamına düzgün riayət olunmur və fəhlələrə ikili mövqedən yanaşma halı mövcud idi. Yuxarıdakı çatışmazlıqları aradan qaldırmaq üçün Mərkəz 1934-cü il mayın 14-də xüsusi qərar qəbul etdi. İlk növbədə, fəhlələrin əməyini gərginləşdirmək üçün müəssisələrarası «yarış» təşkil edildi.

«Kommunist» qəzeti (17050) 18 yanvar 1979-cu il 11-ci sayında ARDTA, fond 89-da saxlanılan mənbələrə əsaslanaraq deyə bilərik ki, İkinci beşillik dövründə Azərbaycanda sənayenin bərpa və inkişafına 252 milyon manat vəsait ayrılmışdır ki, bunun 32 milyon manatı DQMV-nin sənayesinə sərf edilmişdir. Azərbaycanın digər regionları ilə müqayisədə DQMV sənayesinə ayrılan vəsait dəfələrlə artıq olmuşdur [17].

ARDTA, fond 379-dakı materiallara, «Dağlıq Qarabağ sovet hakimiyyəti illərində, Statistik məcmuə toplusu»na, «Kommunist» qəzeti 24 dekabr 1933-cü il (№674) və digər sənədlərə əsaslanaraq keçən əsrin 30-cu illərində Dağlıq Qarabağın sənayesində əldə edilmiş müvəffəqiyyətləri aşağıdakı kimi xarakterizə etmək olar: ikinci beşillik dövründə Dağlıq Qarabağda 22 yeni ticarət mərkəzi açılmışdı. 1933-1938-ci illərdə Dağlıq Qarabağda satış məhsullarının həcmi 5 milyon manata çatmışdır…. 1939-cu ildə xalq gəliri 1933-cü illə müqayisədə 85 faiz artdı. 1939-cu ildə Dağlıq Qarabağda dövlət büdcəsi üzrə gəlir 1.404.687 manat, məxaric isə 1.422.563 manat, olmuşdur [9].

Keçən əsrin 30-cu illərində Dağlıq Qarabağ sənayesində fəhlə və qulluqçuların sayı, sənayedə çalışanlar arasında azərbaycanlıların və qadınların xüsusi çəkisi haqda məlumatlar rus dilində 1982-ci ildə nəşr olunmuş «Azərbaycan SSR-də xalq təsərrüfatı» adlı əsərdə geniş xarakterizə olunmuşdur. Həmin sənədə əsaslanaraq aşağıdakı faktları diqqətinizə çatdırırıq: ikinci beşillik dövründə Dağlıq Qarabağda fəhlə və qulluqçuların kəmiyyətcə artması halı müşahidə edilmişdir. Belə ki, əgər 1933-cü ildə Dağlıq Qarabağda fəhlə və

qulluqçuların sayı 2270 nəfər idisə, 1938-ci ildə 5406 nəfərə çatmışdır. Fəhlə və qulluqçuların milli tərkibinə gəldikdə isə, 1933-cü illə müqayisədə 1938-ci ildə azərbaycanlıların xüsusi çəkisi 28 faiz azalmışdır. Dağlıq Qarabağda sənaye sahəsində çalışan azərbaycanlı fəhlələrin sayının aşağı düşməsinin ən başlıca səbəbi əraziyə məqsədli şəkildə ittifaqın ayrı-ayrı regionlardan ermənilərin köçürülməsi ilə bağlı olmuşdur. Eyni zamanda, ayrı-ayrı regionlarından Dağlıq Qarabağa köçürülən qeyri-azərbaycanlılar şəhər əhalisi idi. Onlar isə əraziyə köçərkən şəhərdə məskunlaşır və müəssisələrdə işə götürülürdülər. Torpağa çox bağlı olan Dağlıq Qarabağ azərbaycanlılarının müəssisələrdə işə cəlb edilməsi zəif idi. Kənddə çətin iş olan pambıqçılığın və üzümçülüyün inkişaf etdirilməsi məqsədilə, Dağlıq Qarabağ idarə aparatına rəhbərlik edən şovinist mövqeli erməni məmurları kənddə yaşayan azərbaycanlıların şəhərə gəlməsinin və müəssisələrdə işə düzəlməsinin qarşısını süni vasitələrlə alırdılar. Bütün bunlarla yanaşı, kənddə yaşayan azərbaycanlıların özlərinin miqrasiya fəallığı aşağı idi. Onların təhsil səviyyəsi, məişət xüsusiyyətləri məhdud olmaqla yanaşı, çoxuşaqlılıq, erkən kəbinlilik və sair amillər kənddə yaşayan azərbaycanlıların şəhərə axınının qarşısını alırdı. Azərbaycanlı qadınların da ictimai istehsal əməyinə cəlb olunması çox aşağı səviyyədə idi. Ümumi respublika miqyasında 1939-cu ildə fəhlə və qulluqçular arasında azərbaycanlı qadınlar 5 faiz təşkil edirdilər [16, 43-49].

İkinci beşillikdə Dağlıq Qarabağ sənayesində əldə edilmiş nailiyyətlər isə 1972-ci ildə nəşr olunmuş «Azərbaycan SSR xalq təsərrüfatı» kitabında təhlil edilib. Mənbədə göstərilir ki, 1938-ci ildə Dağlıq Qarabağda ümumi sənaye məhsullarının həcmi 97.452.600 manata çatmışdır. Bəhs edilən dövrdə Dağlıq Qarabağda ümumi sənaye məhsullarının artım tempi ildən-ilə artaraq 1928-ci ildəkinə nisbətən 1938-ci ildə 4 dəfə artmışdır [16, 45-47].

Bütövlükdə, 1920-ci ildən – 1940-cı ilədək Dağlıq Qarabağın sənayesindəki müvəffəqiyyətlər ARDTA-də fond 28-də işıqlandırılmışdır. Həmin mənbəyə əsaslanaraq aşağıdakıları diqqətinizə çatdıra bilərik: 1933-1938-ci illərdə Sovet İttifaqında sənaye məhsullarının illik artımı orta hesabla 17,1 faiz olmuşdursa, Azərbaycanda 20,3 faiz, Dağlıq Qarabağda 18,2 faizə çatmışdır. 1920-1940-cı illər ərzində Dağlıq Qarabağda yeni texnika əsasında onlarca yeni sənaye müəssisəsi tikilmişdir. Ərazidə ipək sənayesi, yağ, pendir sənayesi, tikinti ləvazimatı, meşə emalı, toxuculuq, tikiş, gön-dəri, yeyinti və başqa sənaye müəssisələri yaradılmışdır. Dağlıq Qarabağda 1920-1940-cı illər ərzində sənayenin inkişafı sahəsində nə qədər böyük müvəffəqiyyətlər əldə edildiyini ondan görmək olar ki, 1926-1927-ci illərin dəyişməz qiymətləri ilə götürüldükdə, sənaye məhsulunun miqdarı 1923-cü ildən 1940-cı ilədək 9 dəfə çoxalmışdır. Təkcə Dağlıq Qarabağda ipək sap istehsalı 1934-cü ildə 1922-ci illə müqayisədə 33 dəfədən çox artmışdır.

1920-1940-cı illərdə Dağlıq Qarabağda tikinti ləvazimatı sənayesi də genişlənmişdir. Həmin illərdə tikilən kərpic, kirəmit, əhəng və mexaniki təmir zavodları məhsul verməyə başlamışdır. Ağac emalı fabriki işə salınmış, ilk

taxta zavodlarından məhsul buraxılmışdır. 1940-cı ildə Dağlıq Qarabağda 1,3 min kubmetr taxta-şalban, 120 ton əhəng, 26 min manatlıq mebel, 172 min ədəd kərpic istehsal edilmişdir. 40-cı illərin əvvəllərində 1925-ci illə müqayisədə yerli sənayenin ümumi məhsulu 20 dəfə artmışdı. Dağlıq Qarabağda yerli sənayenin inkişafı üçün hər cür şərait var idi. Ərazidə bir sıra mədən yataqlarının aşkar edilməsi yerli sənayenin coşqun inkişafına təkan vermişdir [10].

ARDTA, f. 379-da toplanmış sənədlərə əsasən aşağıdakı real faktları diqqətinizə çatdırırıq: Mənbədə göstərilir ki, bəhs edilən dövrdə, Dağlıq Qarabağda sənət kooperasiyası da genişlənmişdir. Sənət kooperasiyası yüz növdə müxtəlif məhsullar istehsal edirdi. İstehsal yerli xammala əsaslanırdı. 1940-cı ildə Dağlıq Qarabağ sənət kooperasiyasının məhsulları (araba və kirəmit istehsalına görə) Azərbaycanda birinci yerdə dayanmışdır. Bünövrəsi birinci beşillikdə qoyulan parça və xalça toxuyan, mebel, ayaqqabı, qənnadı malları hazırlayan artellər 1940-cı ildə məhsul vermişdir. 1920-1940-cı illər ərzində Dağlıq Qarabağda xalça, yağ-pendir sənayesi, asfalt-beton istehsalı, çörək zavodu və ət kombinatının məhsulları diqqətə layiqdir. Ümumilikdə 1923-cü ildən 1940-cı ilədək Dağlıq Qarabağ ərazisində 42 sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bəhs edilən dövründə elektrikləşmə sahəsində xeyli işlər görülmüş və elektrik enerjisi istehsalı 1940-cı ildə 1,5 milyon kilovat saata çatmışdır. 1940-cı ildə adambaşına düşən elektrik enerjisi istehsalına görə DQMV-i ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır [11].

Bütövlükdə, yuxarıda adlarını sadaladıqlarımız mənbələrə əsasən aşağıdakı ümumi nəticəyə gəlirik: Dağlıq Qarabağ sənayesinin 1920-1940-cı illərdə inkişaf etməsi bir sıra amillərlə bağlı olmuşdur. Belə ki, bəhs edilən dövrdə mərkəzin göstərişi ilə bütün Azərbaycan ərazisinin, o cümlədən Dağlıq Qarabağ ərazisinin təbii sərvətləri daha ətraflı öyrənilmiş və ondan səmərəli istifadə edilməyə başlanmışdır. Həmin dövrdə Moskvanın göndərdiyi nümayəndələr Dağlıq Qarabağ istiqamətində ekspedisiyalar təşkil etmiş və ərazidə bir sıra cəmiyyətlər yaratmışlar. Məqsəd həmin ərazidəki təbii sərvətləri aşkarlayıb özününküləşdirmək idi. Hazır məhsul aparmaq üçün kombinləşdirmə metodu tətbiq edilməyə başlandı. Yəni aşkarlanmış təbii ehtiyatların (sərvətlərin) yaxınlığında sənaye müəssisələri tikilməyə başlandı. Bu isə Dağlıq Qarabağda sənayenin inkişafına təkan verdi. Dağlıq Qarabağ ərazisi müxtəlif və zəngin təbii ehtiyatlara malik olmaqla yanaşı, başqa əlverişli imkanlara da malik idi. Yaxşı iqlimə, münbit torpağa, münasib suvarma sisteminə malik Dağlıq Qarabağ ərazisində kənd təsərrüfatı sürətlə inkişaf etmiş, bu isə öz növbəsində sənayenin xammala olan tələbatının ödənilməsinə şərait yaratmışdır. Dağlıq Qarabağda xalq təsərrüfatına qoyulan vəsaitin 66,5 faizi sənayeyə sərf edilmişdir. Sənaye müəssisələrində çalışan fəhlələrin mədəni-məişət şəraitinin yaxşılaşdırılması, onların maddi marağının artırılması, fəhlələr içərisində ciddi əmək intizamının tətbiqi, zay məhsul istehsalına, işdən qalmaq və gecikməyə görə cəza tədbirləri Dağlıq Qarabağda sənayenin inkişafına təkan verdi. SSRİ məkanında vahid iqtisadi planın tətbiqi, texniki avadan-

lıqlarla, təcrübəli mütəxəssislərlə və ixtisaslı fəhlələrlə Dağlıq Qarabağ sənayenin təmin edilməsi, elektrikləşmə, nəqliyyat, yol tikintisi işlərinin inkişafı, sənayesinin inkişafını sürətləndirdi. Bütün bunlarla yanaşı, müxtəlif regionlardan ermənilərin məqsədli şəkildə Dağlıq Qarabağa köçürülməsi və onların sənaye müəssisələrində işə götürülməsi Dağlıq Qarabağ sənayesinin işçi qüvvəsi ilə tam təmin edilməsinə şərait yaratmış və sənayenin inkişafına səbəb olmuşdur. Sovet dövlətinin sənayeləşdirmə siyasətinin Dağlıq Qarabağda həyata keçirilməsi nəticəsində, yeni sənaye sahələrinin əmələ gəlməsi ilə işsizlik problemi aradan götürüldü və istehsal artdı. Rus imperiyası isə iqtisadi təməlini möhkəmləndirmək üçün Azərbaycanı öz xammal bazasına çevirməklə yeraltı və yerüstü sərvətlərimizin talan edilməsini daha da sürətləndirdi. 1920-1940-cı illərdə Dağlıq Qarabağda möhkəm sənaye bazası yaradıldı. Bu prosesin başlıca cəhəti ondan ibarətdir ki, gələcəkdə Dağlıq Qarabağ sənayesinin yerləşdirilməsini daha da yaxşılaşdırmaq üçün möhkəm iqtisadi zəmin yaradılmışdır ki, sonrakı tarixli inkişaf mərhələsində Dağlıq Qarabağda iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin səmərəli yerləşdirilməsi, yeni, daha güclü sənaye ocaqlarının formalaşıb kompleks yüksəlişi üçün sanballı iqtisadi zəmin yaratdı. Bundan sonra gizli yollarla Dağlıq Qarabağdakı Azərbaycan sərvətlərinin Ermənistana daşınması prosesi daha da sürətləndi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.379, s.3, i.1447, v.14.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.28, s.37, i.581, v.18.
3. ARDTA, f.2511, s.3, i.38, v.16.
4. ARDTA, f.28, s.74, i.63, v.68.
5. ARDTA, f. 379, s.3, i.4138, v.10, 19.
6. ARDTA, f. 89, s.1, i.784, v.83.
7. ARDTA, f. 80, s.1, i.784, v.83, 84.
8. ARDTA, f. 89, s.1, i.746, v.174, 176.
9. ARDTA, f. 379, s.3, i.4137, v.81.
10. ARDTA, f. 28, s.3, i. 344, v.13.
11. ARDTA, f. 379, s.3, i. 314, v.37.
12. ARPİİSSA, f.89, s.37, i. 581, v.20.
13. ARPİİSSA, f.89, s.37, i.581, v.3-7.
14. ARPİİSSA, f.89, s.1, i.950, v.76-83.
15. "Azərb. SSR EA Xəbərləri". Bakı, 1931, №2, s.12-13.
16. Azərb. SSR Xalq təsərrüfatı. Bakı: Elm, 1972, 184 s.
17. «Kommunist» qəzeti, №11 (17050) 1979, 18 yanvar.
18. «Kommunist» qəzeti, №674, 1933, 24 dekabr.
19. «Sovet Qarabağı» qəzeti, 1926, 26 iyun.
20. «Yeni yol» qəzeti, 1933, 20 dekabr.
21. «Yeni kənd» jurnalı. Bakı, 1930, №4, s.29.
22. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri. Bakı: Elm, 2000.
23. Məmmədov N. Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi. Bakı: Təhsil, 2010, 200 s.

## ИСТОРИЯ ЦЕЛЕНАПРАВЛЕННОЙ ПОЛИТИКИ ИНДУСТРИАЛИЗАЦИИ РУКОВОДСТВА СССР В НАГОРНО-КАРАБАХСКОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНСКОЙ ССР В ИСТОЧНИКАХ

**Н.Р.МАМЕДОВ**

**РЕЗЮМЕ**

В статье, по данным источников, было проанализировано общее состояние промышленного производства в Нагорном Карабахе в 1926-1940 годах, мероприятии азербайджанского руководства по устранению трудностей в деле восстановления промышленного производства, в результате чего в области были введены в действие новые промышленные отрасли. Все это доказывает, что эта политика соответствовала интересам Москвы.

**Ключевые слова**: источниковедение, история, регион, Карабах, НКАО, литература, объективно, историография, промышленность

## PRECONCEIVED INDUSTRIALIZATION POLICY OF THE USSR AUTHORITIES IN THE DAGHLIG GARABAGH REGION OF AZERBAIJAN SSR IN HISTORICAL SOURCES

**N.R.MAMMADOV**

**SUMMARY**

The article, basing on sources, studies the general situation in Daghlig Garabagh industry in the 1926-1940 years and analyzes the difficulties in the restoration of industry, the measures taken by the government for their elimination which resulted in the operation of new industrial fields. All these prove that this policy pursued the interests of Moscow.

**Key words**: Source Study, history, region, Garabagh, NKAO (DGAR), literature, objective, historiography, industry